# "Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında" 2009-cu il oktyabrın 2-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2010-cu il
№ 943-IIIQ

**Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında**

## SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Hökuməti və Qazaxıstan Respublikası Hökuməti,

heyvanların infeksion xəstəliklərdən müvafiq və ekvivalent olaraq qorunması və onların yayılmasına nəzarəti təmin etmək məqsədilə baytarlıq sahəsində əməkdaşlığın qarşılıqlı genişləndirilməsi və dərinləşdirilməsi niyyətini ifadə edərək,

Tərəf dövlətlər arasında münasibətləri bundan sonra da inkişaf etdirmək istəyini rəhbər tutaraq,

heyvanların, heyvan mənşəli məhsulların və xammalın, heyvanların genetik materiallarının, baytarlıq preparatlarının, yemlərin və baytarlıq nəzarətinin obyektini təşkil edən digər əmtəələrin qarşılıqlı ticarətinin yaxşılaşdırılması məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Tərəflər heyvanların, heyvan mənşəli məhsulların və xammalın, heyvanların genetik materiallarının, baytarlıq preparatlarının, yemlərin və baytarlıq nəzarətinin obyektini təşkil edən digər əmtəələrin Tərəf dövlətlərin ərazisindən ixracı, idxalı və tranziti zamanı öz dövlətlərinin ərazilərini heyvanların infeksion və parazitar xəstəliklərinin yoluxması və yayılmasından qorumaq məqsədilə əməkdaşlıq həyata keçirirlər.

Maddə 2

Tərəflərin bu Sazişin müddəalarının yerinə yetirilməsi üzrə səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan tərəfindən — Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;

Qazaxıstan tərəfindən — Qazaxıstan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi.

Tərəf dövlətlərin səlahiyyətli orqanlarının rəsmi adlarının və funksiyalarının dəyişdirilməsi zamanı Tərəflər bir-birlərini diplomatik kanallar vasitəsilə vaxtında məlumatlandırırlar.

Maddə 3

Tərəf dövlətlərin səlahiyyətli orqanları heyvanların, heyvan mənşəli məhsulların və xammalın, heyvanların genetik materiallarının, baytarlıq preparatlarının, yemlərin və baytarlıq nəzarətinin obyektini təşkil edən digər əmtəələrin idxalı, ixracı və tranziti üçün baytarlıq-sanitariya prosedurlarının həyata keçirilməsini asanlaşdırmaq məqsədilə qarşılıqlı fəaliyyət həyata keçirirlər.

Tərəflər baytarlıq sahəsində qarşılıqlı tədbirləri Tərəf dövlətlərin milli qanunvericiliyi əsasında həyata keçirirlər.

Maddə 4

1. Tərəf dövlətlərin səlahiyyətli orqanları öz dövlətlərinin ərazisində heyvanların əvvəllər qeydə alınmamış infeksion xəstəliklərinin aşkar olunması halları və ya son illər ərzində baş verməmiş digər epizootiyaların meydana çıxması barədə bir-birlərini təcili məlumatlandırırlar.

2. Tərəf dövlətlərin səlahiyyətli orqanları, zərurət olduqda, öz dövlətlərinin ərazisində qeydə alınan infeksion heyvan xəstəlikləri barədə bülletenləri mübadilə edirlər.

3. Bu maddənin 2-ci bəndində göstərilən bülletenlər xəstəliyin adını, xəstə heyvanların sayını, xəstəliyin aşkar olunma tarixini və yerini, xəstəliyin diaqnostika və nəzarət üsulunu özündə əks etdirməlidir. Dabaq xəstəliyi baş verdiyi hallarda virusun növü göstərilir.

4. Tərəf dövlətlərin səlahiyyətli orqanları heyvanların sağlamlığının qorunması məqsədilə infeksion, parazitar və digər xəstəliklərin qarşısının alınması üzrə müasir biliklərin praktik tətbiqinə dair informasiya mübadiləsini həyata keçirirlər.

Maddə 5

Tərəf dövlətlərin səlahiyyətli orqanları baytarlıq sahəsində əməkdaşlığın inkişaf etdirilməsi, elmi tədqiqatların səmərəliliyinin artırılması məqsədilə:

baytarlıq sahəsində təcrübə və informasiya mübadiləsi aparırlar;

elmi tədqiqat baytarlıq institutlarının əməkdaşlığını dəstəkləyirlər;

baytarlıq sahəsində texniki jurnal və digər nəşrlərin mübadiləsinə yardım edirlər;

texniki görüşlər və tədris proqramları barədə bir-birlərini məlumatlandırırlar;

baytarlıq-sanitariya norma və standartlarına dair informasiya mübadiləsi aparırlar.

Tərəf dövlətlərin səlahiyyətli orqanları Tərəf dövlətlərin heyvanların, heyvan mənşəli məhsulların və xammalın, heyvanların genetik materiallarının, baytarlıq preparatlarının, yemlərin

və baytarlıq nəzarətinin obyektini təşkil edən digər əmtəələrin ixracı ilə məşğul olan müəssisələri barədə informasiya mübadiləsi aparırlar.

Maddə 6

Tərəflər bu Sazişin müddəalarının həyata keçirilməsi ilə bağlı xərcləri öz dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq öz üzərlərinə götürürlər.

Maddə 7

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişin ayrılmaz hissəsi olan ayrıca protokollarla rəsmiləşdirilən dəyişikliklər və əlavələr edilə bilər.

Maddə 8

Bu Saziş Tərəflərin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə toxunmur.

Maddə 9

Tərəf dövlətlərin səlahiyyətli orqanlarının nümayəndələri, zəruri olduqda, qarşılıqlı razılıq əsasında görüşürlər.

Bu Sazişin müddəalarının təfsiri və ya tətbiqi ilə bağlı mübahisələr və fikir ayrılıqları yarandığı təqdirdə, Tərəflər onları məsləhətləşmələr və danışıqlar yolu ilə həll edirlər.

Maddə 10

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minir.

Bu Saziş Tərəflərdən birinin digər Tərəfin onu ləğv etmək niyyəti barədə yazılı bildirişini diplomatik kanallar vasitəsilə almasından sonra altı aylıq müddət bitənə qədər də qüvvədədir.

Bakı şəhərində 2009-cu il 2 oktyabr tarixində, hər biri Azərbaycan, qazax və rus dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir.

Bu Sazişin müddəalarının təfsirində fikir ayrılığı yarandığı təqdirdə, rus dilindəki mətndən istifadə ediləcəkdir.

**Azərbaycan Respublikası**
**Hökuməti adından**
*(imza)*

**Qazaxıstan Respublikası**
**Hökuməti adından**
*(imza)*